Esmira NƏZƏRLİ

# «MƏN HAQQINAM BAŞDAN–AYAĞA KİMİ...»

***«Bu böyük ömürdə***
***bir zərrəyəm,***
***bir zərrəciyəm mən,***
***lap ondan da kiçiyəm mən»*** *– deyib, istər insan, istər bir sənətkar kimi böyüklüyünü həqiqətən üzə vurmayan Xalq şairi Fikrət Qocanın 80 yaşı tamam oldu.*

*Səksən yaş! Müdrikliyin ucalığı, zirvəsi. Səksən yaş səkkiz yaş deyil – səkkiz onillikdi. Az adam tapılar ki, bu yaşda da on səkkiz, iyirmi səkkiz yaşında olan kimi, özü olaraq qalsın – istər görkəmi, istər durub-oturmağı, istərsə də münasibəti ilə. Fikrət Qocayla nə vaxt rastlaşsanız, 10, 20 il, lap elə 30-40 il öncəsi, yenə həmən Fikrət Qocanı görəcəksiz: sakit, təmkinli, gülərüz. Onda «böyük-böyük» adamlara məxsus amiranəlikdən, təkəbbürdən əsər-əlamət yoxdur. Təbəssümüylə, sakit baxışlarıyla müsahibinə bir dünya sevinc, rahatlıq bəxş edəsidi...*

*Onun həmişəki sözüdü – kimin nə vecinə ki, ovqatım nə haldadı, və ya hansı mərdiməzarsa kefimə soğan doğrayıb. Dəxli yoxdu, səhər-səhər qabağına çıxan, şirin təbəssümünü səndən əsirgəməyən, öz salamıyla, hal-əhval tutmağıyla sənə xoş əhval gətirən qonum-qonşuna, dost-tanışa elə o minvalla cavab verməlisən, bir anlığa da olsa, öz problemlərini, dərd-sərini yaddan çıxarıban onu sevindirməlisən...*

*Biz on il bundan əvvəl yaşadığımız evə köçəndə eyvanın qənşərindəki qoşa çinar ağacı göylərə boy verirdi. Onların tamaşasından gözüm doymurdu ki, doymurdu... Yamyaşıl yarpaqları günün altında sayrışardı. İllərlə qarın, yağışın, küləyin qısnağını, hamar-tumarını görmüş qoşa çinardan birini bir səhər dəli xəzrinin gücündənmi, ya nədənsə, torpağa sərili gördük. O biri isə hələ də vüqarla dayanıb-durmağındaydı...*

*Fikir verirəm, artıq onun da hər bahar yaşıllaşan yarpaqları ildən-ilə seyrəlir, elə bil öz tayı üçün xiffət eləyir. Xəzri əsib-coşanda hələ ki özünü sındırmayan çinarın çör-çöpünü yaxındakı, o cümlədən bizim də eyvanımıza atır. Belədə istər-istəməz Fikrət Qocanın misraları yada düşür:*

***«Çinar ömrü yaşamışam,***
***Quru bir çinaram mən.***
***Heç çinar da deyiləm,***
***Bir çinar heykəliyəm».***

*Fikrət Qocanın «Çinar»ı da, onun qələmindən çıxmış digər əsərləri də, istər xəzri əssin, qar-yağış ələsin – təbiətin, həyatın amansız dönəmlərinə baxmayaraq, daim yamyaşıldır, yaşarıdır, tər-təzədir.*

*Fikrət Qocada bütün dünyaya həssas şair münasibəti, poetik baxış, səmimi sənətkar mövqeyi var. Özü necə yaşayıbsa, insanlara nə qədər məhrəm, yaxın olubsa, elə hamıya da o gözlə baxır:*

***«Hər an sinəmdən***
***milyon insan nəfəsi keçir.***
***Birinin ölüm ayağında fəryadı,***
***Birinin məhəbbət nəğməsi keçir».***

*Yeri gələndə, təəssüfünü də gizlətmir: «Hayıf ki biz qocalırıq». Təklikdə, tənhalıqda təsəlli tapır:*



***«Ömür keçir, saç ağarır,***
***göz nurdan düşür,***
***Qamət sınır, boy kiçilir,***
***qürurdan düşür,***
***Dost seyrəlir, cərgəmizə***
***daha dən düşür».***

*Yox, biz Fikrət Qocanı zarafatı, duzu-məzəni sevən, elə bu ruhda yazmağı üstün tutan bir şair kimi tanıyırıq.*

***«Hələ bacarsan,***
***son nəfəsdə zarafat elə***
***camaat gülə-gülə qalsın,***
***sən də aradan çıx***
***gülə-gülə».***

✔ (Xalq şairi F.Qocayla müsahibə toplunun 6-cı səhifəsində) ➔

***

*– Fikrət müəllim, oxucuları çaşdırmamaqdan ötrü doğum gününüzə bir aydınlıq vermək istərdik. Özümüz üçün də maraqlıdır: anadanolma tarixiniz bəzən mayın 8-i yazılır, bəzən də avqustun 25-i?*

**— Anam rəhmətliyin 8 uşağı vardı. O biri övladlarının doğum gününü, ola bilsin, səhv sala bilərdi. Amma mən anamın ilkiydim. İlk uşağına aid göstəriciləri ana heç vaxt unuda bilməz. Odur ki, mənim üçün də doğum tarixim elə avqustun 25-dən başlayır. Yeri gəlmişkən, anamla bağlı bir xatirə söyləyim sizə. Rəhmətlik danışardı ki, qaynatamın yanında uşağıma çox elə yaxından baxa bilmirdim. Elə ki o çıxırdı otaqdan, qalırdım körpəmlə tək, bələyib basırdım bağrıma, gözümü çəkə bilmirdim. Üzünə doyunca baxıb, düşünürdüm: «Ay Allah, qurban olum, dünyada bu göyçəklikdə uşaq var görəsən»?** (Ürəkdən gülür).

*– Deyilənə görə, rəhmətlik atanız da vaxtilə şeirə böyük həvəs göstərib. Şeirlərini üzə çıxarmasa da, hər halda bu yöndə qələmini sınayıb. Və maşallah, qollu-budaqlı nəslinizdə atadan gəlmə şeir yükünü çəkmək «vəzifəsi» əsasən sizin çiyninizə düşüb. Oğlunuz Yalçın da «az-az uydurur yeri gələndə». Milyonların rəğbətini qazanmaq şansı da sizin alnınıza yazılıb elə bil. Fikrət müəllim, oxucu sevgisinə nail olmaq üçün şairə illər lazımdır, yoxsa elə bir şeirlə də məşhurlaşmaq mümkündür?*

**– İnsanların hörmət və məhəbbətini tez bir zamanda qazanmaqdan ötrü yazanda – şair çaşır, özünü itirir. Şeir bədahətən gəlməli, qəlbin dərinliyindən süzülməlidir. Doğrusu, haçansa mən də düşünmüşəm ki, bəlkə oxucuların ürəyinə yol tapmaqdan ötrü, daha anlaşıqlı, daha rahat qavranılması üçün yollar aramağa cəhd göstərim. Gördüm ki, yox, hər şeydən yaxşısı elə özünü ifadə eləmək, səmimi etiraflarını qələmə almaqdır.**

*– İlin hansı fəsli, günün hansı saatı, ömrün hansı çağını xoşlayırsız?*

**– Baharı çox sevirəm. Bahar mənimçün dirilik, oyanma zamanıdır. Elə bilirəm yaza çıxsam, ömrüm uzanar. Bir də payız fəsli. Payız fəsli özüylə nə qədər kədər, hüzn gətirsə də, bu aylarda təbiətin qoynunda olmağı çox xoşlayıram. Xüsusilə Rusiya meşələrində. Yamyaşıl yarpaqların hərəsi bir rəngə çalır payızda. Və ağaclara nağılvari bir görkəm verir… İş saatım gecələr olur. Gecə yarısı durub fikirlərimi kağıza köçürməsəm, səhərə kimi çabalayaram, yuxu getməz gözümə. Ömrün çağlarına gəlincəsə…**

– Yəqin ki, gənclik illəri daha çox yaddaqalan olur.

**– Yox, gənclik illəri deyil. Gənclik sadəcə insanın enerjili, arzularla yaşadığı bir dövrdür. Top yerə dəyib, havaya qalxdığı kimi gənclər də sanki daim havada uçurlar. Ömrün bütün çağları gözəldir. Uşaqlıq illəri öz şıltaqlığıyla, gənclik – enerjisiylə, qocalıq – müdrikliyilə. Gərəkdir ki, illərinin qədrini biləsən.**

*– «Mənim alabəzək dünyam var idi». O vaxtlar yazdıqlarınız da alabəzək idi. Son vaxtlar isə mövzularınız daha genişdir.*

*Respublikamızda gedən azadlıq hərəkatından bəhs edən əsərləriniz də bizə yaxşı bəllidir. Bütün bu yaradıcılıq nümunələri sizin insan taleyinə biganə qala bilmədiyinizi sübuta yetirir.*

**– «Azadlıq» mövzusu tükənən deyil. Vətənin azadlığı uğrunda bəzən uzun illər mübarizə gedir. Bu tükənməyən mövzunu reallaşdırmaq üçün bir yox, bir neçə ömür yaşamalısan ki, nəsə bir iş gördüyünü hiss eləyəsən. Yazmıramsa, deməli, yaşamıram.**

*– Bilirik ki, Birinci Avropa Oyunlarına Bakının ev sahibliyini də çox yüksək dəyərləndirirsiz. Bu dəyərin ədəbi nümunəyə çevrilmək ehtimalı varmı?*

**– Bəli, həqiqətən yüksək qiymətləndirirəm. Belə böyük miqyaslı işlər xalqın hər nəfərinin daxili dünyasını açır. Qəhrəman obrazı insanların mərdliyini göstərir, pislərin paxırını üzə çıxarır. O günlərdə xalqımız ümumən qəhrəmanlıq, sözün əsl mənasında Birlik nümayiş etdirdi. Onu da deyim ki, mənim ərköyün nəvəm Fikrət Qoca könüllülər sırasında idi. Həmin günlərdə gecə-gündüz bilmədən çalışırdı. Bu olimpiada nəvəmi məndən aldı, mənə əsl kişi qaytardı. Bəs necə, bu möhtəşəm tədbirlə bağlı şeirlər də yazmışam.**

*– Ədəbiyyat tənqidçiləri poeziyanızı təhlil edəndə, «Yeniliyə meyl onun canındadır» – deyirlər. Texnolojinin və dünyada söz azadlığının bu «pik» çağında Fikrət Qocanın yeniliyi oxucular üçün sözsüz ki, maraqlıdır.*

**– Mən zamanın əlində olan nəhəng bir qranit parçasıyam. Zaman isə heykəltəraşdır. O mənim obrazımı həmin qayadan yonub çıxarır. Artıq bu işin çox hissəsini görüb. Zənnimcə son nəfəsimə qədər də öz işini davam etdirəcək. Ümidvaram ki, gələcəyin tənqidçilərinə bütöv bir obraz verəcək.**

*– Fikrət müəllim, sizcə indiki gənclər özlərinə kimisə ideal sayırlar?*

**– Çox istərdim ki, xalqımızın övladları barmaq izi kimi təkraredilməz, orijinal olsunlar. Heç kim heç kəsə bənzəməsin. Hər kəs özü pərəstişə layiq olsun.**

*– Oxucularla əlaqə saxlayırsızmı? Oxucu məktubları alırsızmı?..*

**– Şəxsən mənim oturub məktub yazmaqdan xoşum gəlmir. Moskvada oxuyanda cəmi bircə dəfə anama məktub yazmışam – o da iki sözdən ibarət teleqram idi: «Pulum qurtarıb».**

– Baxırsan, şairlər yaşa dolandan sonra nəsrə keçirlər. Onu deyim ki, hekayə və povestləriniz poeziyanızdan heç də az maraq doğurmur.

**– Şeirdən yorulanda, və yaxud müəyyən mövzu haqda daha geniş, daha ətraflı danışmaq istəyəndə nəsr köməyimə çatır. Elə mövzular da var ki, şeirə sığmır. Amma nəsrə çox elə aludə olmuram ki, çox da təbliğ olunmasın. Oxucu məni şair kimi tanıyır, istəyirəm şair kimi də yaddaşlarda qalım.**

*– Fikrət müəllim, bəzən mövzularınız tükənirmi?*

**– Bəs qədər mövzum var, hər halda ömrümə yetər.**

*– Bəs niyə darıxırsız, özünüzü tənha sayırsız? Bu cür bədbin fikirlər, hisslər, deyərdim ki, şeirlərinizə də hopur. Mənə qalsa, belə baxanda özünüzü tənha hiss eləməyə bir əsasınız da yoxdur. Külfət ailədə böyümüsüz. Sonralar hər kəs ailə qurub, özlüyündə qol-budaq atıb, böyük bir nəsil əmələ gəlib. Onların hərəsi öz nəvə-nəticəsiylə bir yerə yığışanda, maşallah, gör nə boyda məclis olur?!*

**– Dedikləriniz şirin bir xatirəni yadıma saldı: Mərdəkanda yaxşı bir bağımız vardı. Beş qardaş, üç bacı – hərə öz ailəsiylə məclisimizə yığışardı. Çimərliyə getmək üçün 26 uşağı bir-bir sayıb, maşınlara doldurar, saya-saya da qaytarıb gətirərdik. Sahildə bir çızıq çəkib, ondan o yana getməməyi, bir-birilərindən uzaq düşməməyi tapşırardıq. Bir yerdə keçirdiyimiz o günlər necə də ömrümüzü bəzəyirdi.**

*– «Dost seyrəlir, cərgəmizə daha dən düşür» deyəndə kimləri nəzərdə tutursuz, ətrafınızda kimlərin yeri görükür?*

**– Sizi başa düşürəm, amma bu misrada heç də dünyasını dəyişmiş sənətkarlarımızı nəzərdə tutmuram. Allah onlara rəhmət eləsin. Ölüm haqdır. Əvvəl-axır hamının qonağı olacaq. İstədik, istəmədik. O dostları ki, itirmişik, o dostlar ki, istəyərək bizi tərk edib, naxələfcəsinə ortadan çıxıblar, o dostları ki, vaxtilə özümə bacı, qardaş sanmışam… Bax, o dostluğa, o qardaşlığa hayıfım gəlir. Onların yeri boş görünür.**

*– Amma əvəzində illərin sınağından çıxmış, çoxlarına örnək olmuş dostluğunuz var. Və bu səmimi yaxınlıq kifayət edər ki, bütün umu-küsüləri, olub-keçənləri, sizə olan etibarsızlığı, naxələf «qardaşları» unudub, onun varlığıyla fəxr edəsiz. Görkəmli yazıçımız Anarla olan dostluğunuzu deyirəm. O da sizinlə olan münasibəti fəxrlə, qürurla hər yerdə anır.*

**– Mənim 80 yaşım oldu, Anarın 77. Üç yaş fərqimiz var. Bu illərdə bir dəfə də kəskin mübahisəmiz olmayıb. Müəyyən mövzularda yaradıcı mübahisələr etmişik, amma bunu konfliktə, münaqişəyə çevirməmişik. Sadəcə, uzaqbaşı hərə öz fikrində qalıb. Hər kəs istəsə, dəyərli münasibəti qoruyub, tarazlayıb sadiq dostluğu yaşada bilər. O da gərək ikitərəfli olsun. Tək bacarmazdım. Anarın köməkliyilə biz buna nail olmuşuq.**



*– Xalq şairi Rəsul Rza ilə, onun oğlu tanınmış yazıçı Anarla dostluğunuz neçə-neçə illərin sınağından çıxıb…*

**– Rəsul Rza köhnə Azərbaycan kişilərindən idi. Daxili zənginliyə malik, ziyalı… Birgə onunla ova da getmişik, zarafatlaşmışıq da. Üzünün sərt ifadəsinə baxmayaraq, mərhəmətli, həm də yumorlu insandı… Onunla yola çıxmaq ayrı aləmiydi. Çox mərd kişiydi deyə, hamıda da bu keyfiyyəti dəyərləndirərdi. Düşməni də olsa, ağıllısına hörmət edər, onun ailəsindən, övladlarından köməyini əsirgəməz, onları yarı yolda qoymazdı. Elə mən də özlüyümdə düşünürəm ki, ağıllı düşmən ağılsız ohumdan qat-qat üstündür. Mərd düşmən heç vaxt xəyanət etməz. Azərbaycan kişiləri məhz bu kredoyla yaşayıblar. O cümlədən də Rəsul Rza. Anarda da eynilə bu xasiyyət var. Odur ki, Rəsul Rza oğlundan çox arxayın idi – onun iş-gücündən də, yaradıcılığından da, oturub-durduğu adamlardan da.**

– Sizcə, hansı keyfiyyətlər uzun illərin dostluğunu yaşadır?

**– Anarın xətrini çox istəyirəm. Həmişə onunla fəxr eləmişəm, özümə qardaş bilmişəm. Qardaşlar var ki, sözləri bir-birinin boğazından keçmir. Anar qardaşdan da artıq olub mənə. Hər bir işdə birinci onun rəyini, fikrini, münasibətini öyrənməyə çalışmışam. İnanmışam ki, doğrusunu, sözün düzünü mənə yalnız o deyə bilər. Ona görə ki, həmişə**



Anarın elminə, savadına, bacarığına, səbr və hövsələsinə, təmkininə, bir sözlə, böyük ürəyinə dərin inam və hörmət bəsləmişəm. Böyük dostluq üçün bu keyfiyyətlərin hamısı əsasdır.

*– Hər halda son dövr yaradıcılığınızda təklik-tənhalıq mövzusuna nə üçünsə daha çox yer verirsiz. Açıq-aşkar hiss olunan bədbin notlar misralarınıza xəfif bir kədər ələyir.*

– Bunu bədbinlik adlandırmaq olmaz. Anlamaq, anlaşılmaq dövrü desək, daha düzgün olar. Bunun içində ölümün üzünə dik baxmaq, nikbinliklə yanaşı soyuqqanlılıq var. Çünki heç nə nəhayətsiz deyil, hər şeyin bir sonu var. Xəstələnərkən də təsəllim o olur ki, şükür Allaha, ağrıyıramsa, deməli, sağam, sağalıb ayağa qalxacağıma, yenidən sevdiyim işlə məşğul olacağıma güman yeri var.

*– Nəyə görə bəs qocalıqdan belə gileylənirsiz? İnsan ömrünün ahıl çağlarını elə təsvir edirsiniz ki, haçansa hər kəsin qapısını döyəcək, başının üstünü alacaq bu hal-vəziyyətə görə adamın indidən özünə yazığı gəlir:*

***«Baş ağardı, göz korşaldı,***
***Ağıl itdi, bel büküldü...»***

*Vay, dədə vay!.. (Bu da Fikrət Qoca poeziyasından gəlmə ifadədir).*

– Bəs kimə sataşım? Özümə gücüm çatır. Qocalığımla bir növ oynayıram. Misra-misra. Qocalığın da öz ləzzəti var. Allah-təala hamını ahıl çağlarına çatdırsın: sağ-salamat, gümrah, işgüzar. Həyatımda elə anlar olub ki, demişəm, yəqin artıq sondur. Lakin görürsüz ki, şükür, yaşayıram. Neçə dəfə ölümün caynağından alıblar məni. 86-cı ildə olan hadisədən hamının xəbəri var yəqin. Həkim mənə bir aydan az vaxt təyin etmişdi. Bu barədə çox danışmışam. Bir halda ki, soruşursuz, deməsəm, namərdlik, haqqı danmaq olar.

O vaxt ulu öndər Heydər Əliyev Moskvada – Siyasi Büroda idi. Mən isə o qədər də məşhur olmayan adi bir şair. Vətəninin adi bir vətəndaşına, yurd oğluna sahib çıxmaq, gərgin iş saatlarında ona vaxt ayırmaq, xüsusi diqqət göstərmək, əməliyyatı nəzarətdə saxlamaq yalnız və yalnız böyük şəxsiyyətlərə xas keyfiyyətdi. Həyatımdan ötrü Göydə Tanrıya, Yerdə bu xeyirxah insanlara borcluyam.

Son illər iki dəfə... elə biri bu yaxınlarda hörmətli Prezidentimiz İlham Əliyev cənabları da məni ölümdən xilas eləməsəydi, indi 80 illik yubileyimə ömrüm çatmazdı. Görünür bu onda atasının genetik kodundan gəlmə xüsusiyyətdir. Onların yaxşılığını, arxa-dayağını heç vaxt unutmaram.

*– Həyatdan razılığınızı «Mən əsgərəm» şeirindəki misralar da təsdiq edir. Və elə bu misralarla da söhbətimizi bitirərək, sizə cansağlığı, uzun ömür, iti qələm və nikbinlik arzulayıram:*

*«Mənə əmr ediblər: – yaşa!*
*Yaşamışam!*
*Öz qəmimə ağlamağa,*
*öz sevincimlə gülməyə*
*ixtiyarım yoxdu.*
*Mən haqqa gərəyəmsə,*
*ölməyə ixtiyarım yoxdu».*

◆

SÖZARDI: Toplunun bu sayındakı fəsilaltı yazıları da Fikrət Qocanın 80-90-cı illərdə yazdığı essedən seçib-sonalamışıq...